Kaspi.-2017.-18-20 fevral.-S.24.

# Möhtəşəm abidələr müəllifi

## *Heykəltəraş Səid Rüstəmin yubiley portreti*



Ziyadxan Əliyev

**Tanınmış Azərbaycan heykəltəraşı Səid Rüstəmin illərin qovşağında TÜRKSOY-un Ankaradakı mənzil-qərargahında açılmış fərdi sərgisi həm özünün 60 illik yubileyinə, həm də çoxsaylı sənətsevərlərə əsl yeni il hədiyyəsi oldu, desək, yanılmarıq.**



Səid Rüstəm



Mükafatlandırma



Mehmetcik



Alp Arslan

Sərginin Türkiyənin məşhur sənət adamlarının və Azərbaycan diaspor nümayəndələrinin iştirakı ilə baş tutan açılışında çıxış edən TÜRKSOY-un Baş katibi Düsen Kaseinov Azərbaycan heykəltəraşının yaradıcılığını türk mənəviyyatının təbliğinə böyük töhfə saydığını bildirərək, onun qurumun xatirə medalı ilə təltif olunduğunu bildirdi və mükafatı Səid Rüstəmə təqdim edib. Daha sonra söz alan Azərbaycanın Türkiyədəki səfiri Faiq Bağırov heykəltəraşın Azərbaycan diasporasının qardaş ölkədəki fəaliyyətində fəal iştirakını vurğulamaqla, onun xüsusi təşəkkürnamə ilə mükafatlandırıldığını dilə gətirmişdir...

Qeyd edək ki, bu sərgi 25 ildən artıq müddətdə Türkiyədə çalışan Səid Rüstəmin ilk yaradıcılıq hesabatı deyildi. Etiraf edək ki, ötən illərdə dəfələrlə Türkiyə tamaşaçılarına fərdi sərgilərini təqdim edən heykəltəraş bu gün ölkənin ən tanınmış sənətkarlarından sayılır. Bunu şərtləndirən başlıca səbəb müxtəlif sərgilərlə yanaşı, onun Türkiyədə son bir qərinə ərzində ucaldılan ən məşhur abidələrin müəllifi olmasıdır.

1993-2016-cı illərdə Türkiyənin bir çox şəhərlərində (Ankara, İstanbul, Bursa, Çanaqqala, İzmir, Bolu, Ədirnə, Sarıqamış, Qazantəpə, Tekirdağ, Kastamonu və s.) onun hazırladığı və müxtəlif şəxsiyyətlərə (Mustafa Kamal Atatürk, Nazim Hikmət, İbn Sina, Dədə Qorqud, Fateh Sultan Mehmet, Yunus Əmrə və s.) və hadisələrə ("Zəlzələ", "Səhiyyə", "Ədalət ilahəsi" və s.) həsr olunmuş abidələr ucaldılmışdır. Həmin müddətdə tişə ustasının Macarıstan, Yaponiya, Meksika və s. ölkələrdə müəllifi olduğu heykəllərin açılışı olmuşdur.

Tanışlıq üçün deyək ki, Səid Rüstəm ixtisas təhsilini əvvəlcə Gəncə pedaqoji məktəbində (1972-1976), sonra isə Tiflis Rəssamlıq Akademiyasında (1979-1985) alıb. Gəncəlilər onu şəhərdəki 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş abidənin (1990) müəllifi kimi yaxşı tanıyırlar. 1993-cü ildə Türkiyə Mədəniyyət Nazirliyinin dəvəti ilə Türkiyəyə gedən heykəltəraşın yaradıcılığı əsasən qardaş ölkədə davam etmişdir. Qeyd etdiyimiz kimi ötən bu müddətdə onun yaratdığı abidələr Türkiyənin müxtəlif şəhərlərində ucaldılmışdır. Poladlıda ucaldılan "Mehmetcik" (2008) abidəsi onların arasında xüsusilə seçilir, desək, yanılmarıq...

Türkiyədə vətənpərvərlik rəmzi kimi qəbul edilən bu abidə Ankara və İzmir şəhərləri arasında - Poladlıdakı Qartalqaya yüksəkliyində yerləşir. Onun burada yer alması da təsadüfi deyildir. Belə ki, məhz burada 1921-ci ilin payızında Türkiyə-Yunan müharibəsinin ən taleyüklü döyüşü olub. Ankaranın cəmisi 60 kilometrliyində baş tutan bu döyüşdə Türkiyə əsgərləri böyük igidliklər və fədakarlıqlar hesabına qələbə çalmaqla, əslində, dövlətin sonrakı mövcudluğunu təmin etmiş oldular. Ona görə də Türkiyə hökuməti əsgərlərin şücaətinin əbədiləşdirilməsinə qərar verib. Qənaətimizcə, həmin döyüşün tarixçəsini dərindən öyrənən Səid Rüstəm hazırladığı kompozisiyanın əsas məna-məzmun yükünü türk mehmetciyinin dilindən səslənən taleyüklü "Dur!" əmrinə kökləyə bilib. Abidədə qətiyyəti həlledici əmrə çevirməyi bacaran mehmetciyin silah tutan sağ əlində, düşmənə dayanmaq işarəsi verən sol əlində türk xalqının iradəsini yaşadan mübarizliyi duyulmaqdadır. Ümumi hündürlüyü otuz iki metrə çatan (mehmetcik fiqurunun hündürlüyü 22 metrdir) abidənin monumentallığını şərtləndirən başlıca səbəb onun bədii-estetik və bədii-texniki vasitələrin uğurlu vəhdətindədir...

Bütün mövcudluğu dövründə dövlətçilik taleyi yadellilərə qarşı aparılan ölüm-dirim savaşlarında dəfələrlə sınağa çəkilən Türkiyədə bu yolda iynənin ucu boyda əməyi olanların xatirəsinə ehtiramın göstərilməsi bu günə kimi də davam etdirilməkdədir. Ölkə ərazisində həmin insanlara davamlı şəkildə ucaldılan abidələr də bu ənənənin bu gün də davam etdirildiyini əyani göstərir. Səid Rüstəmin müəllifliyi ilə ucaldılan "Fateh Sultan Mehmet", "Atatürk", "Osman ağa və silahdaşları", "Çavuş Həlimə", "Yanığın Əminə" və "Topal Osman və silahdaşları", eləcə də, insanlara bütün qələbələrində yardımçı olan birlik qaynağına ucaldılan "Türklük" abidəsi məhz bu qəbildəndir. Əgər biz xalqın fateh Sultan Mehmetə və Türkiyə dövlətinin qurucusu Atatürkə olan sevgisinin təbiiliyini Yanığın Əminə kimi adi mərmi daşıyanın timsalında da görə biliriksə, deməli, bu xalqın müstəqillik uğrunda əməyi olanlara ehtiramı vəzifəyə və şan-şöhrətə görə yox, dövlətçiliyin qorunmasına xidmətinə görədir. Bu mənada Türkiyədə ən böyük ehtiram abidəsinin konkret şəxsə yox, adı bəlli olmayan, torpağın naməlum müdafiəçisinə ucaldılmasının da haradasa rəmzi mənası vardır. Bu da yəqin ki, buradakı hər kəsin "Öncə Vətən dir!" çağırışına tapınması, hər an Vətən uğrunda canından belə keçməyə hazır olmasıdır...

Bütün zamanlarda yaradıcı insanların yaşadıqları dövrün və məkanın "ayna"sına çevrilə bilmələrinin öz xalqının tarixi üçün duyulası önəm kəsb etdiyi birmənalıdır. Bu mənada Səid Rüstəmin yaradıcılığında ağrılarımızın dəfələrlə yaddaqalan bədii görkəm almasına rəğmən deməliyik ki, onun bu məsələyə çox fərqli yaradıcı-vətəndaş münasibəti mövcuddur. Bunu elə bu yöndə yaratdığı əsərləri də təsdiqləyir. Başqa sözlə desək, Səid Rüstəm bütün yaradıcılığı boyu özünün böyük Məmməd Arazın arzuladığı "Vətən daşı" olduğunu təsdiqləyə bilmişdir. O, bunu həm Azərbaycandakı, həm də sonralar Türkiyədə davam edən fəaliyyətində sərgiləmişdir. Bu mənada təkcə onun "20 Yanvar" (1990), "Əfqan şəhidləri" (1990), "İstiqlaliyyət" (1992) və "Xocalı" (1992) əsərlərinin adını çəksək, kifayət edər. Bu kompozisiyaların bir neçəsi elə zamanında abidəyə çevrilərək qədim Gəncənin memarlığının ayrılmaz hissəsi olaraq öz xatirə-ehtiram missiyasını gerçəkləşdirməkdədir...

Səid Rüstəmin yaradıcılığı təkcə monumental heykəllərlə məhdudlaşmır. Onun dəzgah heykəltəraşlığı sahəsində yaratdığı müxtəlif janrlı əsərlər həm məna-məzmun tutumunun çoxqatlılığına, həm də forma-biçim oynaqlığına görə diqqət çəkir. Müəllifin davamlı müşahidələrinin nəticəsi olan bu heykəltəraşlıq əsərlərində bizi əhatə edən hadisələrə, insanın bələndiyi ən müxtəlif yaşantılara obrazlı-düşündürücü tutum verildiyindən, onlar uzun müddət unudulmur.

Səid Rüstəmin müxtəlif illərdə yaradılan və bədii-estetik dəyərini bu gün də qoruyub saxlayan kiçik ölçülü belə abidə-heykəlləri arasında "İbn Sina" (1995), "Mehmetcik" (1998), "Osmanlı dəniz hərbçiləri" (1998), "Namik Kamal" (1998), "Piri Rəis" (1998), "Gül Baba" (1998), "Son" (1998), "Fateh" (1999), " I Süleyman Qanuni" (2000), "Memar Sinan" (2000), "Alparslan Türkeş" (2000), "Hacı Bektaş" (2000), "Kaman çalan qız" (2000), "Rəssam" (2000), "Yağlı güləş pəhləvanları" (2003), "Dədə Qorqud" (2003), "Osmanlı mühafizəçisi" (2004), "Atatürk" (2005),"Rəssam" (2000), "Kaman çalan" (2000), "İlahi güc" (2005),"Özümdən qaçış" (2006), "Heydər Əliyev" (2008), "Vətən sevgisi" (2009) və s. adını xüsusi qeyd etmək lazımdır.



Qədir Rüstəmov

Hər bir heykəltəraşın ilk olaraq ideya kimi kagız üzərində gerçəkləşən və sonda müxtəlif materiallarda iri həcmdə plastik görkəm alan fikir və düşüncələrinin bir qayda olaraq kiçik ölçülərdə bədii həllini tapması çoxlarına məlum məsələdir. Çox vaxt bu ilkin variantlar elə ilkin də olaraq qalır, bəzən isə onlar sonrakı yaradıcılıq prosesində abidənin yerləşəcəyi fəza-məkanın, bəzən də sifarişçinin tələblərindən irəli gələn forma-biçim dəyişikliklərinə məruz qalırlar. Bu mənada, plastika ustalarının kiçik ölçülü əsərləri elə ilkinliyin təravət gücünü daşıdıqlarına görə dəyərli sayılırlar. Səid Rüstəmin "Üsyan"(1981),"Qədir Rüstəmov"(1998), "Ehtizaz" (2007), "Fəryad" (1992), "Dulusçu" (1984), "Atlı" (1985), "Heykəltəraş" (1983) və s. bu qəbildəndir. Çox vaxt belə işlər müəllifin düşüncələri ilə yanaşı, həm də gerçəklikdə tuş gəldiyi heyrət qaynağından "şirələndiyindən" onun miqyaslı möhtəşəm əsərlərinin uğuruna təminat rolunu oynayır. Odur ki, o, özünün fərdi yapma manerasına, anı əbədiliyə çevirmə axtarışlarına dayaq-təkan olan bu istiqamətdə axtarışlarını bu gün də davam etdirməkdədir...